# Qaz xətti çəkilişi sürətlənir

Xəbər verildiyi kimi Bum qəsəbəsinə mavi qaz kəməri çəkilişinə mütəşəkkil şəkildə başlanmışdır. Bu, qəsəbə sakinlərinin çoxdankı arzusu idi. Hal-hazırda həmin xeyirxah işlə 6 briqada məşğuldur. İşi MRC tikinti quraşdırma təşkilatı öz öhdəsinə götürmüşdür. Xətti vaxtında başa çatdırmaq üçün kifayət qədər texnika və işçi qüvvəsi toplanmışdır. İndiyə qədər 35 kilometr mavi qaz kəməri inşa edilmişdir. İşin mütəşəkkil və keyfiyyətli getməsinə iş icraçısı Razi Səlimov ciddi nəzarət edir.

Çilingərlərdən Ceyhun Əzizli, Amil Məmmədov, İzzət Hüseynli, Asif Bəyverdiyev, İman Əzizov, qaynaqçılardan Azad Zeynalov, Şahin Ağayev, Faiq Əliyev, Natiq Mustafayev, Rövşən Nəsibov işin keyfiyyətli görülməsi üçün səy göstərirlər.

Fəhlələrdən Əli Məmmədlinin, Fəxri Ebişovun, Pərvin Məmmədovun, Zaur Eyyubovun və başqalarının nümunəvi işləri də danılmazdır.

Yaxın günlərdə qaz xətlərinin evlərə çəkilişinə də start veriləcəkdir. Kollektiv çalışır ki, bu çətin və xeyirxah işi vaxtından əvvəl başa çatdırsın.

**Aysel SÜLEYMANOVA,**
**Bum qəsəbəsi.**



Qəbələnin təbiət mənzərələrindən.
**Foto Səhrab UMUYEVİNDİR.**

# Vaxtından əvvəl qarpız yemək təhlükəlidirmi?

Yay fəslində ən çox əhali tərəfindən yeyilən bostan bitkilərindən biri qarpız və digəri isə yemişdir. Qarpızın insana faydası çoxdur. Çünki onun tərkibindəki «likopen» maddəsi qan təzyiqini nizamlayır, ürəyin funksiyasını yaxşılaşdırır, eyni zamanda xərçəngdən qoruyur.

Qarpız həmçinin böyrəklərin fəaliyyətini yaxşılaşdırır və 95 faiz sudan ibarətdir. Böyrəkdəki daş və duzları təmizləyir. Qarpızda bol B, C vitamini və antioksidan ehtiyatı da var. Tərkibindəki bol kalium və beta-karotin maddəsi sayəsində ürəyi infarkdan qoruyur. Arıqlamaq üçün də qarpız məsləhət görülür və o çəkisini artmağa da qoymur.

Qarpızın insan orqanizminə xeyir olduğu qədər zəhərlənmə hallarına da rast gəlinir. Yay mövsümünün iyun-iyul aylarında qarpız yemək düzgün deyil. Lakin bəzən aprel və may aylarında müxtəlif mağaza, market və bazarlarda bu bostan bitkilərindən olan qarpıza rast gəlmək olur. Düzdür, bəzi rayonlarda qarpızın qışa kimi saxlanılması ilə bağlı müxtəlif metodlar tətbiq olunur. Amma həmin qarpızı yemək də olduqca təhlükəli sayılır. Bu gün qarpız bitkisinə həddindən artıq gübrə verilir, müəyyən dərmanlar vurulur və bu da qarpızın keyfiyyətini dəyişir.Qarpız alarkən bəzi məqamlara diqqət etmək lazımdır. Normal gübrələrlə yetişdirilmiş qarpız 4-5 kiloqramdan ağır olmamalıdır. Qarpıza bıçaq toxunduran kimi partlamalı, qarpızın rəngi al-qırmızı, qabığının qalınlığı yarım santimetr olmalıdır. İçində ağ zoğ olanları yeməyə yararlı deyil. Qarpızı yemək zəruridir, amma sağlamlığımıza da diqqət edilməlidir.

# Maraq dünyamız

1. Uşaq bədənində 300 sümük olur, böyük insanda 206. Sümüklərə 639-dan çox əzələ bərkiyib.

2. İnsan dili-bədəndə yeganə əzələdir ki, bədənə bir tərəfdən bərkiyib.

3. Asqıran zaman insan havanı saatda 160 km sürətlə içəri çəkir.

4. İnsan beyni 85% sudan ibarətdir. Tərkibində 100 milyarda yaxın neyron var. Onların hər biri 10 min başqa neyronlarla birləşir.

Eyni vaxtda bu qədər müxtəlif istiqamətli əlaqələr heç bir müasir kompüterdə yoxdur. Beynin qidası üçün bədənə daxil olan oksigenin 1/4 hissəsi kifayət edir.

5. Ən balaca əzələ insanın orta qulağındadır. Ölçüsü 1 mm-dir və qulağın içindəki kiçik sümükləri saxlayır.

6. Ümumi olaraq 29 fərqli qan qrupu növləri var. Onlardan ən nadir tapılanı A-H adlanır. Bu yalnız Yaponiyada yaşayan bir neçə ailədə mövcuddur.

7. Ən güclü əzələ çeynəmə əzələsidir. Sağ və sol çeynəmə əzələlərinin ümumi gücü 400 kq-dir.

8. İnsan bədəninin ən möhkəm hissəsi diş emalıdır.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Qəbələ Rayon Təhsil şöbəsi mətbəə xərcləri və cari təmir işlərinin aparılması üzrə katirovka sorğusu ELAN EDİR

İddiaçılar tələb olunan sənədləri 13 avqust 2015-ci il tarixə saat 18-00-a qədər Qəbələ Rayon Təhsil Şöbəsinə təqdim etməlidirlər.

Zərflər 14 avqust 2015-ci il tarixdə saat 11-00-da Qəbələ rayon Təhsil Şöbəsində açılacaqdır.

**Əlaqələndirici şəxs:** İldırım Şirinov.
**tel:** 24- 20 - 5- 01 - 33.

# Müdrik deyimlər

✤Ağıl ilə dövlət əldə etmək olar, dövlətlə ağıl qazanmaq olmaz.

**Keykavus.**

✤Ağıllı olmaq istəyirsənsə ağıllı sual verməyi, diqqətlə dinləməyi, sakit cavab verməyi və sözün qurtaranda susmağı öyrən.

**J. K. Lafator.**

✤Əsil gözəllik surətdə deyil, ağıl və kamaldadır.

İnsanı özünə bağlayan və hüsnü-camalı kamala yetirən ağlın nuru və mərifətin ziyasıdır.

**F. Köçərli.**

✤Hər yaranın sağalmasına ümid etmək olar, lakin namus yarası sağalmaz.

**Ərəb atalar sözü.**

✤Fəlakətin başlıca qaynağı həddindən artıq arzularımızdır.

**Diyorjen.**

✤Öz-özümüzü idarə etməyi öyrədən idarəçilik ən yaxşı idarəçilikdir.

**Höte.**

✤Elmdir cümlə sənətin dəyəri.

# Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

**Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.**

**Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.**

**Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**

**Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.**

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.